Kredo.-2024.- 15 noyabr (№69-70).- S.9.



Şair Rafiq Musanın ad gününə sosial şəbəkə üçün qısa təbrik məktubu yazmışdım. Hiss etdim ki, qeydlərim sosial şəbəkənin elm və sənət adamları zümrəsində xüsusi maraq doğurdu. Professor Həsən Bayramov xüsusi və özünəxas yumorla rəy də yazmışdı. Zənnimcə, bu, şairin ünvanına rəğbətdən doğan bir rəy idi. Ancaq hörmətli professorun rəyi yazdığım ad günü təbrikinə daha ciddi yanaşmağım qənaətini yaratdı. Axı Rafiq Musa sıradan bir qələm adamı deyil, bütün həyatı boyu poeziya ilə, sənətlə nəfəs alıb. Vicdani yanaşma ilə desək, tam iddiasız, kimsədən bir rəğbət dolu rəy ummadan, cəfakeşliklə yazıb-yaradıb. Elə oxuculara təqdim olunan "Qarabağ Azərbaycandır" poeması da onun kifayət qədər ədəbi səriştəsindən, ilhamlı təbiətindən və vətəndaşlıq mövqeyindən xəbər verir.

* * *

ŞIM" etüd filminə baxdım... gənc nəsil üçün hava və su kimi gərəkli bir əsərdir...

44 günlük qələbəni bizim ordumuz təkcə silahı ilə qazanmadı... bu qələbə həm də yenilməzlik ruhu ilə qazanıldı... bax bu əzmi bir həb kimi əsgərlərimizin ruhuna söz sahibləri bəxş etmişdilər... Şübhəsiz, bu sinəsi yanğılı söz sahibləri arasında sənin də yerin bütün dolğunluğu ilə görünür. Düşünürəm ki, Azərbaycan əsgəri vətən borcunu yerinə yetirərkən ruhunu səfərbər edən sözü son nəfəsində dodaqları arasından pıçıldamış olar. Həmin anda həmin sözün müəllifi əsgərdir. Amma o sözü yaradanın da bir xoşbəxtlik ünvanı var. Axı sözü vətən üçün gərək olub. Burada "Qarabağ Azərbaycandır" poemasının bəzi motivləri yada düşür. Əsər televiziyamızın maraqlı aparıcılarından biri Jalə xanıma müraciətlə yazılıb. Hiss olunur ki, bu poemanın əvvəli də qələmə alınıb. O yeri ki, hələ onda qələbə yox idi. Həmin hissədə şair ekrandan danışan aparıcıdan qələbə xəbəri istəyir. Bu istəyin poetik vaiantını poemanın birinci hissəsində qələmə alıb. Nəhayət, qələbə haqqın əvəzi olaraq Azərbaycanın itirilmiş torpaqlarını geriyə qaytardı. Vətənin qəsb olunmuş parçası vətənə birləşdirildi. Səni ilhama gətirən vətən yarasının sağalmasıdır. Bir şair üçün bundan üstün nə ola bilər? Özün demiş, demək, sən bütün savaş boyu əsgərlərlə birgə olmusan, əlbəttə, sözünlə. Vətən üçün çağlayan ilhamlı ruhunla.

# RAFİQ MUSAYA AD GÜNÜ TƏBRİKİ...

İndi keçirəm məktuba.

Adına layiq çoxlu söz bilirəm...ancaq hansını seçib yazmağa tərəddüd edirəm...

Sənin həyatsevərliyindən, nikbin təbiətindən, duzlu, dinləyənə şirin yaşantı bəxş edən yumorundan haracan desən danışaram...

Danışa bilmirəm... ona görə ki , səxavətin, qonaqpərvərliyin, dostcanlılığın, digər insani keyfiyyətlərin də çox dəyərlidir... Deməli, insanı cəmiyyətə təqdim edən elə xüsusiyyətlər var ki, onlar heç də yaradıcılıqdan az əhəmiyyətli deyil. Demək, bu təbiət də insana çox gərəklidir... Burada bir yumorlu müdaxiləyə də ehtiyac var; nə olsun ki, sənin səxavətin bir-iki qutabla başa gəlir... hər halda bu sənin qonaqcanlı olmağının görünən tərəfidir... bunları qoyub başqa cəhətlərinə üz tutmaq düzgünmü? Zənnimcə, sənin yumorlu sancmalarına cavab üçün bu qutab məsələsi də yerinə düşür.

Doğrusu şairliyin haqda danışmaq istəmirdim... Hesab edirdim ki, sənətin, yaradıcılığın ad gününə dəxli yoxdur... Amma ictimai adam üçün, sözü cəmiyyətə ünvanlanmış hər hansı bir şəxs üçün ad günü məsələsi də təkcə onun özünə aid deyil.

* * *

Hörmətli Rafiq Musa, buraya qədərki qeydlərdən hasil olan nəticə budur ki, şair haqqında söz açıb onun poeziyasından danışmamaq bir qəbahət olardı. Axı sən ilhamlı, həyatı bütün tərəfləri ilə görə bilən bir şairsən...

Poeziyanı mövzu baxımından təsnif etmək çətin deyil. Sevgi sənin poeziyanın oxucular tərəfindən sevilən mövzusudur.

Sevgi mövzusu... özün demiş sevgi şeirlərini yazmaq elə də asan deyil... bunun üçün gərək özün sevdalı olasan, özün sevəsən...sevmək isə fədakarlıqdır...

Asanlıqla fədakar olmaq mümkünmü... bunun üçün nələrdən keçməlisən... bu nələrdən keçməyi sən bacarırsan...

Vətən mövzusu... bu mövzu sənin yaradıcılığında torpaq, yurd, əsgər, millət, xalq sevgisi ilə motivlənir...

Bu günlərdə sosial şəbəkədə yayılan "MƏNİM ƏSGƏR QARDA-

"Qarabağ Azərbaycandır" poemasını birər-birər təhlil etmək yerinə düşərdi...

Qələbəyə qədər Qarabağın faciəli yolunu da görürük... Qarabağ həsrətini də hiss edirik əsər boyu...

Nəhayət, sevinclərimiz də sənin təbiətindən gələn nikbinliklə qovuşur... 15-ə qədər poetik kitabın müəllifisən...hər kitab sənin yaradıcılığın üçün bir mərhələ olub...

Təmsil yaradıcılığın tədqiq olunarsa sənin ədəbiyyatımıza necə obrazlar gətirdiyini də görmək olar

İnsan kinsizliyi, qərəzsizliyi, ürək genişliyi, başqalarının uğuruna sevinə bilmək qabiliyyəti ilə kimliyini təsdiq edir... Düşünürəm ki, bu ünvanı sən haqqın olaraq qazanmısan. Üstün kimlik haqqını.

Bütün sadaladığım cəhətlər səni şair və şəxsiyyət kimi xarakterizə etməyə bəs etməsə də, az deyil...

Dostların səni sevirlər...İsmayıl, İslam, Saməddin, Tormoz Hüseyn, Vilayət, MirCəlal... mən də istərdim ki, səni çox sevim... bəlkə gələcəkdə bu da mumkün oldu...

Rafiq Musa... hər kəsə dostluq yolu qoymaq gücündəsən...

Həyatının böyük qismini uğurlu pedaqoji işə sərf etmisən....

Vaxtı yelə sovuran küllənməyin də olub...

Amma yarı yolda qalmamısan...

Güllübulaq yolu səni gözləyir... yaxşı yol, üzü gələcəyə...

***Əli Rza XƏLƏFLİ***

***11.11.2024***